**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

**ƏMR**

**16 sentyabr 2025-ci il** **10-1/3-1-164/2025**

**Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə əməl edilmədiyinə və peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatların təqdim edilməməsinə görə intizam və tənbeh tədbirləri barədə**

Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 6.1-ci “Auditorların bağladığı müqavilələrin məbləğlərinin və müqavilə üzrə verilmiş rəylərin operativ təhlili və təkiflərin təqdim edilməsi” bəndinə uyğun olaraq Auditin təşkili və hesabatlılıq idarəsinin rəisi V.Cavadov tərəfindən təqdim edilmiş 2025-ci il 26 avqust tarixli xidməti məktuba əsasən Palata Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri”nə əməl etmədiyinə və peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatları təqdim etmədiyinə görə Şuranın 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında” Əsasnaməyə uyğun olaraq sərbəst auditor Ağayev Miramal Mirbağı oğlu barəsində intizam və tənbeh tədbirləri görülməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında” Əsasnamənin 6-cı “Töhmət tənbehi” maddəsinin 7-ci “Peşə mənsubları/üzvləri tərəfindən Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri” barədə qərarına uyğun olaraq minimum xidmət haqqından aşağı sifarişlərin qəbul edilməsi” bəndinə əsasən və peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatları təqdim etmədiyinə görə sərbəst auditor Ağayev Miramal Mirbağı oğluna şəxsi işinə qeyd edilməklə töhmət elan edilsin.
2. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, üç gün müddətində bu əmrin mətninin xəbərdarlıq məktubu ilə birlikdə sərbəst auditor Ağayev Miramal Mirbağı oğluna göndərilməsini təmin etsin.
3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir həftə müddətində bu əmrdən irəli gələn məsələləri həll etsin.
4. Bu əmrin mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/R4PzhmYsCKmojkfysWmj7z4wUPJRI2HHeN%2ByxKmZzYs%3D

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/R4PzhmYsCKmojkfysWmj7z4wUPJRI2HHeN%2ByxKmZzYs%3D